**UOT: 332.363, 338.43**

# TORPAQLARIN KONSOLİDASİYASININ KƏND YERLƏRİNİN İNKİŞAFINA TƏSİRİ

**Namiq Əlövsət oğlu Şalbuzov, i.ü.f.d.**

***Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini***

***e-mail: n.shalbuzov@mail.ru***

**Əbdülrəhim Əbdülrəhman oğlu Dadaşov**

***Aqrar Tədqiqatlar Mərkəzinin aparıcı mütəxəssisi, UNEC-in doktorantı***

***e-mail: ebdulrehimdadasov@gmail.com***

***Xülasə***

*Məqalədə torpaqların konsolidasiyasının mahiyyəti və kənd təsərrüfatındakı rolu araşdırılmış, kənd təsərrüfatı təyinatlı torpaqlarda konsolidasiya aparılmasının kənd yerlərinin inkişaf etməsi üçün perspektivləri, ölkədə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin mövcud vəziyyəti və kənd təsərrüfatı məhsullarının istehsalına təsiri təhlil edilmişdir. Eyni zamanda torpaqların konsolidasiyasını uğurla aparmış dünya ölkələrinin təcrübəsi öyrənilmişdir. Məqalənin yekununda kənd təsərrüfatı təyinatlı torpaqlarda konsolidasiyanın aparılmasına dair təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, kənd yerləri, kənd təsərrüfatı təyinatlı, torpaqların konsolidasiyası, fraqmentləşmə.*

## Giriş

Ölkədə kənd təsərrüfatının və kənd yerlərinin inkişafı baxımından əsas istehsal vasitəsi olan torpaqdan səmərəli istifadə xüsusi əhəmiyyətə malikdir. Torpaq resurslarından dayanıqlı istifadə özündə iqtisadi, sosial və ekoloji aspektlərin vəhdətini əks etdirir. Yəni torpaqlardan istifadə zamanı iqtisadi səmərəliliklə yanaşı, kənd yerlərində məşğulluq, gəlir, ərzaq təhlükəsizliyi, həyat səviyyəsi kimi sosial məsələlər və ətraf mühitin qorunması prinsipləri də daim diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, hazırda ölkənin kənd yerlərində yaşayan əhalisinin əsas gəlir mənbəyi və ərzaq təminatı məhz kənd təsərrüfatı fəaliyyəti ilə bağlıdır. Amma kənd yerlərinin inkişafından danışılarkən yalnız gəlir və ərzaq təminatı nəzərdə tutulmur. Kənd yerlərinin inkişafı konsepsiyası özlüyündə kənd təsərrüfatı istehsalı, məşğulluq, sosial infrastruktur, mənzil şəraiti, mülkiyyət münasibətləri sahəsində təkmilləşdirmələrin aparılmasını nəzərdə tutur.

**Kənd təsərrüfatının inkişafında torpaqların konsolidasiyasının rolu**

Müasir konsolidasiya konsepsiyası – kənd yerlərində yaşayan əhalinin maddi və mənəvi rifahının artırılması, kənd icmasının davamlı siyasi-iqtisadi inkişafı və təbii resurslardan dayanıqlı istifadə edilməsi, eyni zamanda urbanizasiyanın qarşısının alınmasına xidmət edir. Müasir torpaq konsolidasiyasının əsas prinsiplərinə daxildir:

- Əsas məqsəd sadəcə ilkin kənd təsərrüfatı məhsullarının istehsalının artırılması deyil, ümumilikdə kənd yerlərində həyat səviyyəsinin yaxşılaşdırılması olmalıdır;
- Son nəticə kənd icmasının davamlı iqtisadi və siyasi inkişafının və təbii resursların davamlı idarə edilməsinin təmin edilməsi olmalıdır;
- Proses yalnız konseptual olaraq deyil, həm də təcrübədə demokratik, inklüziv, iştirakçılığın təmin edildiyi, icmayönümlü proses olmalıdır;
- Yanaşma kənd yerlərinin və regional inkişaf elementlərinin inteqrasiyasını təmin etməklə kənd-şəhər əlaqələrinin daha da dərinləşməsinə töhfə verməlidir [3].

Göründüyü kimi torpaqların konsolidasiyası sadəcə fraqmentləşmiş torpaq sahələrinin birləşməsini nəzərdə tutan bir proses deyil, eyni zamanda kənd yerlərinin ümumi inkişafını nəzərdə tutan prosesdir ki, bu da son nəticədə kənd yerlərində həyat səviyyəsinin yüksəlməsini, kənd icmasının inkişafını, ətraf mühitin mühafizəsini və təbii ehtiyatlardan davamlı istifadəni təmin etmiş olur.

Torpaqlardan səmərəli istifadə, kənd təsərrüfatı məhsullarının artırılması sahəsində atılmış ən mühüm addımlardan biri ölkədə həyata keçirilmiş aqrar islahatlar, o cümlədən torpaq islahatı olmuşdur. 1991-ci ildə SSRİ-nin süqutundan və Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra qarşıda duran həlli vacib problemlərdən biri də yeni torpaq siyasətinin həyata keçirilməsi idi. Bu məqsədlə ölkədə irimiqyaslı torpaq islahatlarının aparılmasına başlanıldı. İlk olaraq torpaq islahatının həyata keçirilməsi üçün normativ hüquqi aktlar, o cümlədən "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası qanunları qəbul edildi, həmçinin "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 yanvar tarixli 534 nömrəli Fərmanı əsasında isə 1997-1999-cu illərdə torpaqların özəlləşdirilməsinə başlanıldı.

Azərbaycan Respublikasında torpaq islahatlarının 1997-1999-cu illəri əhatə edən birinci mərhələsində ölkədə mövcud olmuş 2032 kollektiv təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək, onların əkinə yararlı münbit torpaqları əhaliyə paylanılmış, hər bir subyektə verilən torpaq payı onlara mülkiyyət hüququnu təsdiq edən hüquqi sənəd, dövlət aktları ilə rəsmiləşdirilərək naturada sahiblərinə tanıdılmışdır. Bu mərhələdə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilər istisna olmaqla, Azərbaycan Respublikasında torpaq payı almaq hüququ olan 873618 ailədən 869268 ailəyə, yəni 3442778 şəxsə torpaq payı verilmiş, torpaq islahatı 99.5% yerinə yetirilmişdi [2].

Qeyd edilməlidir ki, həmin dövr üçün torpaq islahatının aparılması tarixi zərurət idi və qısa bir müddətdə islahatın müsbət nəticələri özünü real həyatda da göstərdi. Belə ki, torpaq islahatlarının birinci mərhələsinin nəticəsi olaraq 1995-ci illə müqayisədə 2000-ci ildə kənd təsərrüfatının ümumi

məhsulu 1.5 dəfə artdı. Artım bitkiçilik üzrə 1.5 dəfə, heyvandarlıq üzrə 1.6 dəfə təşkil etmişdir ***(Qrafik 1)*** [2].

**Qrafik 1. Kənd təsərrüfatı üzrə ümumi məhsul göstəricilərinin müqayisəsi, mln. manat**




***Mənbə:*** *Dövlət Statistika Komitəsi*

Müqayisə olunan dövrdə ayrı-ayrı məhsullar üzrə faktiki istehsal göstəricilərində əhəmiyyətli artım əldə edildi ***(Cədvəl 1)***.

**Cədvəl 1. Ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsal göstəricilərinin müqayisəsi**

| Göstəricilər, min ton | 1995 | 2000 | Müqayisə üzrə nisbi dəyişiklik, dəfə və ya % |
|---|---|---|---|
| ***Bitkiçilik məhsulları üzrə*** | | | |
| Taxıl | 921.4 | 1540.2 | *+1.7 dəfə* |
| Meyvə və giləmeyvə | 324.4 | 477.0 | *+1.5 dəfə* |
| Kartof | 155.5 | 469.0 | *+3.0 dəfə* |
| Tərəvəz | 424.1 | 780.8 | *+1.8 dəfə* |
| Bostan bitkiləri | 41.9 | 261.0 | *+6.2 dəfə* |
| Tütün | 11.7 | 17.3 | *+1.5 dəfə* |
| Şəkər çuğunduru | 28.1 | 46.7 | *+47.0%* |
| ***Heyvandarlıq məhsulları üzrə*** | | | |
| Ət (diri çəkidə) | 184.3 | 258.9 | *+40.5%* |
| Ət (kəsilmiş çəkidə) | 109.4 | 153.6 | *+40.4%* |
| Süd | 826.5 | 1031.1 | *+24.8%* |
| Yumurta, milyon ədəd | 455.8 | 542.6 | *+19.0%* |
| Yun | 9.0 | 10.9 | *+21.1%* |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi*

Xüsusilə bostan bitkilərinin istehsalı 6.2 dəfə, kartof istehsalı 3.0 dəfə, tərəvəz istehsalı 1.8 dəfə, taxıl bitkiləri istehsalı 1.7 dəfə, tütün istehsalı isə 1.5 dəfə artdı.

Heyvandarlıq məhsulları üzrə də artıma nail olundu. Belə ki, müqayisə olunan dövrdə diri çəkidə ət istehsalı 40.5%, süd istehsalı 24.8%, yumurta istehsalı 19.0%, yun istehsalı isə 21.1% artdı. Növbəti illərdə istehsal və məhsuldarlıq göstəricilərinin artımı davam etmişdir.

Kənd təsərrüfatının və kənd yerlərinin inkişafının əhəmiyyəti nəzərə alınaraq ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə ardıcıl olaraq tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" çərçivəsində kənd yerlərinin inkişafı, kənd əhalisinin layiqli məşğulluğunun təmin edilməsi və həyat səviyyəsinin yaxşılaşdırılması məsələlərinin həlli məsələləri ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur [2]. Həmçinin bu Strateji Yol Xəritəsi üzrə müəyyən edilən strateji hədəflər sırasında kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı, o cümlədən torpaq bazarının inkişaf etdirilməsi ilə yanaşı, kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı, icarə və istifadəyə verilməsi ilə bağlı prosedurların sadələşdirilməsi və bu sahədə şəffaflığın artırılması, kənd təsərrüfatına yararlı torpaqların istifadəsiz saxlanılmasının qarşısını almaq üçün müvafiq mexanizmlərin tətbiqi, torpaqların konsolidasiyası istiqamətində işlərin həyata keçirilməsi ilə bağlı tədbirlər də öz əksini tapmışdır [1].

Kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə ilə bağlı məsələlər Strateji Yol Xəritəsi ilə yanaşı, Azərbaycan Prezidenti tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda və bir sıra digər dövlət proqramları və siyasət sənədlərində öz əksini tapmışdır.

Qeyd olunan siyasət sənədləri torpaqlardan istifadə sahəsində müsbət dəyişikliklərə səbəb olmuş, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əhəmiyyətli işlər görülmüş, kənd təsərrüfatında məhsuldarlıq göstəriciləri yüksəlmiş, istehsal göstəriciləri artmışdır. Bu çərçivədə kənd yerləri əhatə olunmaqla, regionlarda sosial və fiziki infrastruktur sahələrinin inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, ümumilikdə kənd əhalisinin rifahının yüksəldilməsi istiqamətində böyükmiqyaslı işlər görülmüş və əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunmuşdur.

Aparılan məqsədyönlü siyasətə və ardıcıl tədbirlərə baxmayaraq bu sahədə problemlər hələ də qalmaqdadır. 2015-ci ilin kənd təsərrüfatı siyahıyaalınması məlumatlarına əsasən ölkədə təsərrüfatların sayı 944768, təsərrüfatların sərəncamında olan kənd təsərrüfatına yararlı torpaq sahəsindən əkilmiş sahə 1537778 ha olmuşdur. Ümumi təsərrüfatların 61.2%-ni sərəncamında 1 hektaradək əkilmiş sahə olan təsərrüfatlar təşkil etmişdir. Bu təsərrüfatların sərəncamında olan cəmi əkilmiş sahə isə ümumi əkilmiş sahənin 11.7%-ni təşkil etmişdir. Təsərrüfatların 34.2%-ni sərəncamında 1-5 hektar əkilmiş sahə olan təsərrüfatlar təşkil etmişdir. Bu təsərrüfatların sərəncamındakı cəmi əkilmiş sahə ümumi əkilmiş sahələrin 44.1%-ni təşkil etmişdir [2].

Göründüyü kimi, torpaqlar fraqmentləşmişdir və bu isə torpaqlardan səmərəli istifadə baxımından qənaətbəxş hesab edilmir. Çünki, torpaq sahələrinin fraqmentləşməsi özü ilə digər

problemlərin də yaranmasını şərtləndirir. Ümumilikdə isə, kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə və kənd yerlərinin inkişafı sahəsindəki problemləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- *torpaqların həddən çox fraqmentləşməsi;*
- *torpaq sahiblərinin mülkiyyətində olan torpaq sahəsinin bir-birindən ayrı müxtəlif yerlərdə olması;*
- *bəzi hallarda torpaq sahələri arasında məsafənin böyüklüyü;*
- *kənd təsərrüfatı fəaliyyətindən əldə edilən gəlirlərin səviyyəsinin aşağı olması;*
- *məşğulluq baxımından kənd təsərrüfatına alternativ sahələrin az olması;*
- *kənd yerlərində sosial infrastrukturun zəif inkişafı;*
- *şəhərlə müqayisədə kənd yerlərində həyat səviyyəsinin çox aşağı olması;*
- *müxtəlif amillərlə əlaqədar torpaq sahiblərinin bir hissəsinin kənddən şəhərə və ölkə xaricinə mövsümi və ya uzunmüddətli miqrasiyası.*

Göründüyü kimi problemlər müxtəlif spektrli olmaqla kənd yerlərinin inkişaf etdirilməsinə kompleks yanaşmanı tələb edir. Torpaqların konsolidasiyası isə kənd yerlərinin kompleks inkişaf etdirilməsi üçün bir alət rolunu oynayır. Beləliklə, kənd yerlərinin inkişafının təmin edilməsi üçün torpaqların konsolidasiyasının həyata keçirilməsi tələb olunur. Torpaqların konsolidasiyası sxemində isə aşağıdakıların nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1. Torpaq parsellərinin konsolidasiyası;
2. Kənd ərazilərinin kənd təsərrüfatı (meliorasiya, irriqasiya, drenaj sistemləri də daxil olmaqla), landşaft, ətraf mühitin mühafizəsi, rekreasiya və nəqliyyat sahələrinin maraqları nəzərə alınaraq balanslaşdırılmış şəkildə planlaşdırılması;
3. Təbiət hadisələrinin (sel, daşqın, quraqlıq, eroziya və s.) ətraf mühitə, kənd təsərrüfatına və kənd infrastrukturuna təsirinin azaldılması;
4. Kəndin yenilənməsi (yeni evlər, yeni istehsal sahələri, yeni infrastruktur obyektləri, məzarlıqlar üçün torpaq sahəsi, köhnə tikililərin yenilənməsi, zəruri hallarda təyinatının dəyişdirilməsi);
5. Mülkiyyət və icarə hüquqlarının effektiv tənzimlənməsi (otlaq və biçənəklərdən istifadə, odun istehsalı, balıqçılıq, su resurslarından (çay, göl, digər su hövzələri) istifadə, torf, gil, qum hasilatı);
6. İnklüzivliyin təmin edilməsi (gender məsələləri və yeniyetmələrin inkişafı).

**Nəticə**

Qlobal trendlər nəzərə alınmaqla kənd təsərrüfatının dayanıqlı inkişafını təmin etmək, aqrar sahədə müəyyən edilmiş strateji hədəflərə nail olmaq, torpaqdan istifadə sahəsində iqtisadi-sosial-ekoloji nəticələr üzrə göstəriciləri qarşılıqlı əlaqələndirmək və kənd yerlərinin inkişafına kompleks yanaşmanı tətbiq etmək məqsədilə torpaqların konsolidasiyasının aparılması məqsədəuyğundur.

Torpaqların konsolidasiyası nəticəsində işğaldan azad edilmiş rayonlar da daxil olmaqla ölkədə kənd təsərrüfatı təyinatlı torpaqlardan intensiv istifadəyə, kənd yerlərində infrastrukturun inkişafına, kənd yerlərinin inkişafında vahid planlaşdırma strategiyasının tətbiqinə və ekoloji tarazlığın təmin edilməsinə nail olunacaqdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı 2016, 177 səh. https://azertag.az/store/files/Strateji_yol_xeritesi/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf)
2. Dövlət Statistika Komitəsinin statistik informasiya bazası (https://www.stat.gov.az/).
3. http://www.fao.org

*Ph.D.* N.A. Shalbuzov
Deputy director of the Agricultural Economics Research Center

*Ph.D. candidate of UNEC,* A.A. Dadashov
Agricultural Economics Research Center

**Effects of land consolidation on rural development**

*Summary*

*The article examines the essence of land consolidation and its role in agriculture, the prospects of land consolidation in agricultural lands for the rural development, the current state of agricultural land use in the country and its impact on the production of agricultural products. At the same time, good world practice about land consolidation has been studied. At the end of the article, proposals were made for the consolidation of agricultural lands.*

***Keywords:*** *agriculture, rural areas, agricultural purposes, land consolidation, fragmentation.*

*Д.ф.э.н.* Н.А. Шалбузов
Зам. директора Центра Аграрных Исследований

*Докторант UNEC,* А.А. Дадашов
Центр Аграрных Исследований

**Влияние консолидации земель на развитие сельских местностей**

*Резюме*

*В статье рассмотрены сущность и роль консолидации земель в сельском хозяйстве, проанализированы перспективы проведения консолидации на землях сельскохозяйственного назначения для развития сельских районов, современное состояние использования земель сельскохозяйственного назначения в стране, влияние на производство сельскохозяйственной продукции. В то же время был изучен опыт стран мира, которые успешно провели консолидацию земель. В заключение статьи были выдвинуты предложения по проведению консолидации на сельскохозяйственного землях.*

***Ключевые слова:*** *сельское хозяйство, сельские районы, сельскохозяйственная земля, консолидация земель, фрагментация.*